Azərbaycan Respublikası Prezidenti
Yanında Ambusdman (İnsan hüquqlarının
müdafiəsi üzrə müvəkkil)
Elmira xanım Süleymanovaya

Azərbaycan Respublikası Göyçay rayonu
Nizami küçəsi, ev 69-da yaşayan
Zenfira İsmayıl tərəfindən

# Ə R İ Z Ə

Hörmətli Elmira xanım hazırkı ərizə ilə Sizə müraciət etməyimin səbəbi oğlum İsmayıl Rüstəmin AFR-da yaşıdığı uzun illər ərzində həmin dövlətin ayrı-ayrı inzibati və hüquq mühafizə orqanları tərəfindən hüquqlarının pozulması,ona qarşı təzyiq və psixoloji təsirlərin göstərilmişdir.

Nəzərinizə çatdırıram ki,oğlum İ.Rüstəm ildən AFR-nın Berlin şəhərində yaşayır.Bu illər ərzində o Polis orqanlarının əməkdaşlarə tərəfindən vəhşicəsinə döyülmüş və döyülmə nəticəsində aldığı xəsarətdlərdən dəfələrlə xəstəxaalara düşmüşdür.Xəstəxanalarda müalicə olunmasına baxmayaraq polislər tərəfindən döyülmə nəticəsində oğlum bir çox xroniki xəstəliklərə düçar olmuşdur.

Oğlum polis orqanları tərəfindən döyüldüyü və xroniki xəstəliklərə düçar olması barədə almaniya dövlətinə dəfələrlə müraciət etsədə heç bir nəticəsi olmamış və dövlət tərəfindən oğluma nə maddi nə də mənəvi köməklik göstərilməmişdir.Bu səbəbdən oğlumun polislər tərəfindən döyülməsi və təsirlərə məruz qalaraq xroniki xəstəlik tapması barədə İnsan Haqları məhkəməsinə dava açmış və həmin məhkəmədə oğlumun ərizəsinə əsasən 746/04 saylı iş açılmışdır.Qeyd olunan məhkəmədə iş açılmasına baxmayaraq məhkəmə bu günə kimi oğlumun iddiasına baxmamış və hər dəfə işin baxılmasını heç bir səbəb olmadan uzadır.

Hormətlim xanım onu da nəzərinizə çatdırıram ki,Berlin şəhəri səhiyyə idarələrində işləyən həkimlər oğlumun anlaqsız olmasını göstərməyə çalışır və bununla da onun məhkəmədə ifadə verməyinə mane olurlar.Bu isə ona qarşı olan haqsızlıqlardan biridir.Bir ana kimi qəti olaraq bildirirəm ki,oğlum əqli cəhətdən sağlamdır və onun anlaqsız olmasından söhbət gedə bilməz.

Hörmətli Elmira xanım məlumat üçün bildirirəm ki,oğlum 15.05.2009 il tarixdə Strasburq şəhərində hüquqlarının müdafiəsi ilə əlaqədar olarkən oranın polisləri tərəfindən saxlanılmış və PAVİLLON SAİNT CHAKLES –HOPİTALA yerləşdirilmiş və hal hazırda orada saxlanılır.Mənə məlum olmuşdur ki,yaxın günlərdə onun kəmağıllı olmasının müəyyən edilməsi barədə məhkəmə olacaq və məhkəmə qərarından sonra oğluma iynə vuracaqlar,oğlumun mənə verdiyi məlumata görə əhmin iynə insana vurulursa həmin şəxsin yaddaşı tam pozulur və o həqiqətən dəli olur.Mən bir anna kimi buna dözə bilmərəm

Çox hörmətli Elmira xanım onu da nəzərinizə çatdırıram ki,oğlum qeyd olunan məhkəməyə qədər bir neçə məzhkəməyə müraciət etmiş və onlar da oğlumun işinə öbyektiv baxmamışlar.Oğlum İsmayıl Rüstəm hal-hazırda Strasburq şəhərinədə saxlanılır və onun üçün çox çətindir.Onun bü gün Azərbaycan Respublikasını müdafiəsinə çox böyük ehtiyacı vardır və mən inanıram ki,Siz mənim hazırkı ərizəmlə tanış olduqdan sonra mənim anna fəryadıma şərik olacaq və oğlum İsmayıl Rüstəmin hüquqlarının müdafiəsi üçün səlahiyyətiniz dairəsində tədbir görəcəksiniz.

Hörmətlə : Ucvy Z.İsmayıl

« » Мay 2009 il